***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNİNG TECHNOLOGIES***

*UOT 37.0*

***Rəhiməxanım Rzabala qızı Məmmədzadə,***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dillər Universitetinin müəllimi*
https://orcid.org/0009-0008-2256-3185

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏRBİYƏ TEXNOLOGİYALARDAN İSTİFADƏ ETMƏKLƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ KEYFİYYƏTLƏRİN FORMALAŞDIRILMASININ VACİBLİYİ

***Рагимаханум Рзабала гызы Мамедзаде,***
*доктор философии по педагогике,*
*преподаватель Азербайджанского Университета Языков*

# ВАЖНОСТЬ ФОРМИРОВАНИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ СТУДЕНТОВ ПОСРЕДСТВОМ ВОСПИТАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В ВУЗЕ

***Rahimakhanim Rzabala Mammadzadeh,***
*doctor of philosophy in pedagogy,*
*lecturer at the Azerbaijan University of Languages*

# THE IMPORTANCE OF FORMING THE MORAL QUALITIES OF STUDENTS WITH THE HELP OF UPBRİNGİNG TECHNOLOGIES IN THE UNIVERSITY

**Xülasə**. Bu məqalədə bizim məqsədimiz tələbələrin mənəvi keyfiyyətlərə yiyələnmələrində tərbiyə texnologiyalarından faydalanmağın imkanlarını üzə çıxarmaqdan, faydalılığını göstərməkdən ibarət olacaqdır. Tərbiyə texnologiyaları dedikdə, tərbiyə məqsədlərinin yerinə yetirilməsini reallaşdıran forma və yollar, üsul və vasitələr, təhsilalanın təhsil, tərbiyə və inkişaf proseslərinə təsir göstərmək imkanları nəzərdə tutulur.

***Açar sözlər:*** *tələbələr, mənəvi keyfiyyətlər, şəxsiyyətin mənəvi keyfiyyətləri, tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması, tərbiyə texnologiyaları, ali təhsil müəssisələrində tərbiyə texnologiyaları, tərbiyə texnologiyalarının tətbiqi*

**Резюме**. В данной статье нашей целью будет раскрыть возможности использования образовательных технологий в приобретении студентами нравственных качеств, показать их полезность. Под образовательными технологиями понимаются формы и способы, методы и средства, реализующие образовательные цели, возможности воздействия на процессы обучения, воспитания и развития обучающегося.

***Ключевые слова:*** *студенты, нравственные качества, нравственные качества личности, формирование нравственных качеств у студентов, воспитательные технологии, воспитательные технологии в ВУЗ-е, применение воспитательных технологий*

**Summary.** In this article, our goal will be to reveal the possibilities of using upbringing technologies in acquiring moral qualities by students, to show their usefulness. Upbringing technologies are understood as forms and methods, methods and means that realize upbringing goals, the possibility of influencing the processes of learning, education and development of the student.

***Keywords:*** *students, moral qualities, moral qualities of a person, the formation of moral qualities in students, upbringing technologies, upbringing technologies in the university, the use of upbringing technologies*

Pedaqoji prosesin səmərəliliyinə nail olmaq üçün müxtəlif üzül və vasitələrdən faydalanırlar. Bu sahədə pedaqoji texnologiyalar özünəməxsus rol oynayır.

Pedaqoji texnologiya pedaqogikada yeni bir istiqamət kimi ötən əsrin 70-80-ci illərində ABŞ-da yaradılmışdır. Bu tipli texnologiyaların özülündə təlim-tərbiyə prosesinin idarə olunması, layihələndirilməsi və mərhələlərlə həyata keçirmək yolu ilə təhlili imkanları dayanır.

Pedaqoji ədəbiyyatla tanışlıqdan görünür ki, müasir təhsil texnologiyaları aşağıdakı texnologiyaları özündə ehtiva edir:

*pedaqoji dəstək texnologiyası (repetitorluq);

*şəxsiyyətyönlü texnologiya;

*layihə əsaslı təlim texnologiyası;

*tənqidi təfəkkürün inkişafı texnologiyası;

*İ.P. İvanovun irəli sürdüyü kollektiv yaradıcı tərbiyə texnologiyası (KYT);

*Ş.A. Amonaşvilinin humanist-şəxsi texnologiya məqsədləri

*tərbiyə işgüzar oyun texnologiyası;

*tərbiyə məsələləri ilə bağlı müzakirələrin təşkili texnologiyası;

*uğur situasiyasının yaradılması texnologiyası;

*sağlamlığa qənaət edən texnologiya;

*situasiya texnologiyaları;

*şou texnologiyaları;

*tərbiyə texnologiyaları.

Pedaqoji texnologiyalar arasında tərbiyə texnologiyaları son dərəcə mühüm rol oynayır.

Pedaqoji texnologiyalara əsaslanmaq, səciyyəvi tərbiyə və təhsil texnologiyalarından istifadəetmə bacarığı peşəkar fəaliyyətini yüksək səviyyədə qurmaqda müəllimə öz köməyini göstərir.

Bu məqalədə bizim məqsədimiz tələbələrin mənəvi keyfiyyətlərə yiyələnmələrində tərbiyə texnologiyalarından faydalanmağın im-kanlarını üzə çıxarmaqdan, faydalılığını göstərməkdən ibarət olacaqdır.

Tərbiyə texnologiyaları nədir? Tərbiyə texnologiyaları dedikdə, tərbiyə məqsədlərinin yerinə yetirilməsini reallaşdıran forma və yollar, üsul və vasitələr, təhsilalanın təhsil, tərbiyə və inkişaf proseslərinə təsir göstərmək imkanları nəzərdə tutulur.

Tərbiyə texnologiyalar digər texnologiyalardan bəzi cəhətlərinə görə fərqlidirlər. Diqqət yetirək:

-təhsilalanlarla, o cümlədən tələbə gənclərlə pedaqoji əməkdaşlığın bərqərar olması;

-həm məqsədinə, həm də vəzifələrə görə (mənəvi keyfiyyətlərin faydalanmağa dair biliklərə yiyələnmə, mənəvi keyfiyyətlərin mənimsənilməsi, fərdiliyin inkişafı);

-müəllimin (valideynin) tərbiyə texnologiyalarının köməyilə həyata keçirdiyi funksiyalara görə (diaqnostik funksiyalar, ixtilaflı vəziyyətlərin həllinə yönələn funksiyalar);

-pedaqoji vasitələrin səmərəli imkanlarına görə və s.

İ.P. İvanovun kollektiv yaradıcılıq texnologiyası (KYT) nisbətən geniş yayılmışdır. Kollektiv yaradıcılıq texnologiyası dəyərli işlərə, müsbət fəaliyyətə və mənəvi emosiyalara əsaslanan, fəallığı, kollektiv iştirakı nəzərdə tutan, tələbənin düzgün tərbiyəsinin və inkişafının səmərəli üsulu kimi anlaşılır.

Kollektiv yaradıcılıq texnologiyasının (KYT) ***postulatları*** kimi aşağıdakılar təsəvvürə gətirilə bilər:

-tələbələrdə özünütərbiyəyə tələbatın təşəkkülü;

-mənəvi keyfiyyətlərə yiyələnmə tələbatı;

-pedaqoji əməkdaşlıq; müəllim-tələbə münasibətlərinin düzgün qurulması;

-mənəvi baxımdan tərbiyələnmə üsullarını seçmək azadlığı və s.

Tələbələrin mənəvi keyfiyyətlərə yiyələnmələrində tərbiyə texnologiyalarından istifadə zamanı sağlamlığın qorunması və sağlam həyat tərzinə yiyələnmənin özünəməxsus rolu vardır. Dediklərimizə aydınlıq gətirək.

*bu, tələbələrin sağlamlığının qorunmasına istiqamətlənən təhsil və tərbiyəyə sistemli yanaşmadır;

* auditoriyada əlverişli mənəvi və psixoloji atmosferin yaradılmasını nəzərdə tutur;

*sağlamlığın mühafizəsini və sağlam həyat tərzinin keçirməyin tələbata çevrilməsinin faydalılığını diktə edir;

Tərbiyə texnologiyalarından faydalanaraq tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi zamanı pedaqoji kollektivlərin üzvləri, müəllimlər onların psixoloji rahatlığı qayğısına qalmalıdırlar.

Psixoloji rahatlıq mühitində tələbələrin fəaliyyəti hiss olunacaq dərəcədə yüksəlir ki, bu isə, son nəticədə mənəvi tərbiyəliliyin yüksəlməsinə, biliklərin daha yaxşı mənimsənilməsinə, və uğurlu nəticələrə gətirib çıxarır. Mühazirə

və seminar məşğələsinin sonunda tələbələr auditoriyadn xoş əhval-ruhiyyə ilə ayrılırlar. Ona görə ki, bu müddət ərzində praktik olaraq heç bir mənfi amil özünü göstərmir.

Təhsilalanda müəllimə inam olmalıdır. Müəllim ilk növbədə tərbiyəsi ilə məşğul olduğu, biliklərlə silahlandırdığı şəxsdə inam formalaşdırmalıdır. Belə olan təqdirdə pedaqoji əməkdaşlıq asanlıqla baş tutur. Tələbə müəllimi incitmir. Onun həm yorğunluğunun qarşısı alınır, həm də yaradıcılıq imkanlarının meydana çıxarılmasından ötrü əlavə stimul yaranır.

Auditoriyanın təşkili, tələbələrin və təlim prosesinin uğurla idarə olunması mənəvi keyfiyyətlərin daha da inkişaf etdirtilməsini təmin edir, tələbənin müstəqilliyi, təşəbbüskarlığı artır. Bütün bunlar da tələbəyə tərbiyələndirici təsir göstərir. Tələbənin öz fikrini ifadə etmək istəyinə müəllimin müsbət reaksiyası, buraxılmış səhvlərin birlikdə təshihi, müstəqil zehni fəaliyyətə həvəsləndirmə, yumordan istifadə və s. tələbələrin hər birinin istedad və qabiliyyətlərini aşkarlamağa imkan verir. Bundan başqa, auditoriyada, eyni zamanda auditoriyadankənar tədbirlərdə quru rəsmiyyətçiliyin və gərginliyin olmaması hər bir tələbəyə daxilən özünü arzuolunmaz psixoloji maneələrdən uzaq durmağa, cəsarətli danışmağa, müstəqillik və təşəbbüskarlıq göstərməyə, öz mövqeyini sərbəst ifadə etməyə kömək göstərir.

Tələbələrin sağlamlığının qorunması yalnız təhsil fəaliyyətinin təşkilindən ötrü mühüm gigiyenik və psixoloji atmosferin meydana gətirilməsini deyil, eyni zamanda bu və ya digər xəstəliyin qarşısının alınmasını, həmçinin sağlam həyat tərzinin diqqət mərkəzində dayanmasını nəzərdə tutur.

Tədqiqat və müşahidələrdən görünür ki, şəxsiyyətin sağlamlığı üçün daha təhlükəli hal onun həyat tərzi hesab edilir. Odur ki, hər bir şəxsə hələ məktəb illərindən öz sağlamlıqları qayğısına qalmaq öyrədilirsə, o vaxt gələcəkdə xəstəliyə qarşı davamlı olacaq.

Ali təhsil müəssisələrinin müəllimləri öz pedaqoji fəaliyyətlərində hansı texnologiyalardan faydalanırlarsa faydalansınlar, təhsilalanların dediklərinə, hiss etdiklərinə də diqqət yetirməlidirlər.

Tələbələrin onlara məsləhətləri nə ola bilər? Fikir verək:

*Mənim nəyi bacardığıma əmin olun. Bu zaman özümün və özüm üçün nəyi isə edə biləcəyimi mənim əvəzimdə yerinə yetirməzsiniz. Belə təşəbbüsdə olsanız - mən də olmasam kim isə başqası sizin ürəyiyumşaqlığınızdan, sadəlövhlüyünüzdın sui-istifadə edərək sizi işlədəcəkdir.

*Məni uşaq gözündə görməyin. Bu, məni alçaldar. Sizdən hədsiz narazı qalaram.

*Bacara bilməyəcəyiniz vədi verməyin - bu sizə olan inamı sarsıdar.

*Məni gözdən salmağa və ya məni incitməyə çalışmayın. Əks təqdirdə, özümü müdafiə etmək məcburiyyətində qalacağam.

*Nəyin yaxşı və nəyin pis olduğu ilə bağlı mənə məsləhət verməyin.

*Xoşagəlməz davranışım və hərəkətimlə bağlı başqalarının yanında mənə öyüd-nəsihət verməyin. Belə hallarda fərdi söhbət səmərəlidir və mən də deyilənləri yerinə yetirməyə çalışaram.

Yuxarıda deyilənlərdən görünür ki, müəllimlər tələbələrdə mənəvi keyfiyyətlərin daha da inkişaf etdirilməsinə qayğı ilə yanaşmalı, bu zaman tərbiyə texnologiyaların imkanlarından bəhrələnməlidirlər.

**Problemin aktuallığı.** Müasir şəraitdə tərbiyə texnologiyalardan istifadə etməklə tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Tərbiyə texnologiyalardan faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. -Bakı: Mütərcim, -2023.
2. Abbasov, A.N. Məmmədzadə R.R., Məmmədli L.A. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. L.A. Məmmədli. -Bakı: Mütərcim, -2022.

**E-mail**: ragimaxanum.mamedzade@mail.ru

**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 03.07.2023